# Əlillərə qayğı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindəndir





## Xətai rayonu

BMT Baş Məclisinin 1992-ci ildə 3 dekabrın “Əlilliyi olan insanların Beynəlxalq Günü” kimi qeyd olunması haqqında qəbul etdiyi bəyannamədən keçən 24 ildə Beynəlxalq Əlillər Günü adı alan bu tarix Azərbaycanın bütün regionlarında xüsusi qeyd olunur. Məramı dövləti və cəmiyyəti əlillik problemlərinin həllinə cəlb etmək, əlilliyi olan bütün insanların hüquqlarını qorumaq olan bu günün əsl bayram kimi qeyd olunması paytaxtın Xətai rayonunda da artıq bir ənənəyə çevrilib.

Elə bu məramla da dekabrın 3-də Xətai Rayon İcra Hakimiyyəti yüz əlliyə yaxın əlilliyi olan rayon sakinini “Mübarək” şadlıq sarayında bir ailə kimi süfrə başına toplamışdı. Diqqətçəkən məqamlardan biri giriş qapısındaca icra aparatı əməkdaşlarının əlil insanların hər birini uzun illərin tanışları kimi səmimi qarşılaması idi. Toplantının rəsmi hissəsində çıxış edən icra hakimiyyəti başçısının müavini Jalə Abdıyeva qonaqları salamlayaraq, “bugünün sahiblərini” icra başçısı Razim Məmmədovun adından səmimi təbrik etdi.

J.Abdıyeva diqqətə çatdırdı ki, bu gün Azərbaycan dövləti əlillərin də digər insanlar kimi vətəndaş hüquqlarına tam riayət edilməsinə və onların cəmiyyətin həyatında fəal iştirakının təmin olunmasına çalışır. Bununla belə, Azərbaycan rəhbərliyi hesab edir ki, əlillər əhalinin başqa təbəqələri ilə müqayisədə daha çox sosial müdafiəyə, mənəvi dəstəyə, humanist münasibətə möhtacdırlar. Bu insanlar hətta maddi cəhətdən təmin olunsalar belə, onlara cəmiyyət tərəfindən isti münasibət göstərilməli, doğmaları ilə bərabər yadlar da onlara qayğı, mərhəmət və diqqət göstərməlidirlər. Bu vətəndaşların insanlıq borcudur və hamı bu borcunu dərk etməlidir.

J.Abdıyeva son illər Azərbaycan Prezidenti İlham Əliyevin əlillərin hüquqlarının qorunması və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində gördüyü tədbirləri, qanunvericilik bazasında münasib dəyişikliklər edilməsini, onların pensiyalarının artırılmasını diqqətə çatdıraraq qeyd etdi ki, bu, ümummilli lider Heydər Əliyevin sosial siyasətinin qətiyyətlə davam etdirildiyini göstərən faktlardan biridir. Ölkəmizdə əlillərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlərin davamlı olmasını bu gün həyata keçirilən sosial-iqtisadi islahatlardan və dövlət əhəmiyyətli proqramlardan da aydın görmək olar. Məhz bu islahatların nəticəsində əlillər mənzil, maşın, əlil arabaları ilə təmin olunur, müxtəlif ölkələrdə dövlət vəsaiti hesabına müalicə və bərpa kursları keçirlər.

Çıxışının sonunda dövlətin əlil insanlarla bağlı siyasətinin Xətai rayonunda da uğurla həyata keçirilidiyini və icra hakimiyyətində əlillərin sosial-məişət problemlərinə son dərəcə diqqət və qayğı ilə yanaşıldığını qeyd edən J.Abdıyeva onların problemlərinin həllinin daim diqqətdə saxlandığını nəzərə çatdırdı.

Tədbirdə çıxış edən əlillər dövlətin, xüsusilə Prezident İlham Əliyevin onlara göstərdiyi diqqət və qayğıdan razılıqlarını bildirərək qeyd etdilər ki, özümüzü cəmiyyətdən ayrı hiss etməməyimiz bizim üçün çox dəyərli bir məqamdır. Bunu tədbirin gedişindən, əlil insanların salondakı çal-çağıra qoşulub rəqs etmələrindən də aydın görmək olurdu.

## Suraxanı rayonu

3 dekabr – Beynəlxalq Əlillər Günü münasibətilə Suraxanı Rayon İcra Hakimiyyəti və Dövlət Sosial Müdafiə Fondu rayon şöbəsinin birgə təşkilatçılığı ilə əmək, müharibə əlilləri, Çernobıl qəzasının iştirakçıları və müxtəlif səbəblərdən əlil olan 150 nəfər rayon sakininin iştirakı ilə mərasim keçirilib.

Tədbirdə rayon icra hakimiyyəti başçısının müavini Afət Həsənova çıxış edərək ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan insanlara göstərilən diqqət və qayğıdan danışıb.



Bildirib ki, xüsusi qayğıya ehtiyacı olan insanların təhsilə, əmək fəaliyyətinə cəlb olunması istiqamətində çox mühüm işlər görülür, müharibə əlillərinə, şəhid ailələrinə yüksək dövlət qayğısı göstərilir. Ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən gəlişi zamanı imzalanan ilk fərmanlarında biri “Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında” sənəd olub. Bununla da müharibə iştirakçılarının, əlillərin sosial müdafiəsi istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Hazırda rayonda 10994 nəfər əlil yaşayır. Onlardan 2550 nəfəri sosial əlil, 8444 nəfəri müharibə, əmək, silahlı qüvvələrdə xidmət, Çernobıl qəzası və digər əlil kateqoriyasına daxildir. 18 yaşına çatmayan əlillərin sayı isə 830 nəfərdir. Onların hamısına dövlət tərəfindən pensiya və müavinət verilir. Bu qəbildən olan insanların sosial rifahının yüksəldilməsi, müalicəsi, reabilitasiyası, sosial təminatı istiqamətində mühüm addımlar atılır.

Afət Həsənova sonda vurğulayıb ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması, özlərini cəmiyyətin tamhüquqlu üzvü kimi hiss etmələri üçün bütün zəruri tədbirləri həyata keçirir. “Hər bir vətəndaş bizim üçün qiymətlidir, dəyərlidir. Fiziki cəhətdən qüsurlu insanlar isə xüsusi qayğıya layiqdirlər və biz çalışırıq ki, bunu edək”, – deyən dövlət başçısının bu sözləri əlilliyi olan şəxslərin sosial müdafiəsinin daim gücləndirilməsində öz əməli təsdiqini tapır.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə adıçəkilən fond tərəfindən son illər həyata keçirilən sosial layihələr sayəsində əlillərin sosial müdafiəsi ilə bağlı mühüm irəliləyişlər əldə edilib. Fondun əlilliyi olan şəxslərlə bağlı fəaliyyətinin əsas istiqamətləri onların müalicəsi və təhsil hüquqlarının reallaşdırılmasıdır. Mehriban xanım Əliyevanın təşəbbüsü, diqqət və qayğısı sayəsində bir çox əlil evləri əsaslı təmir olunub, müasir standartlara tam uyğun yeni bərpa mərkəzləri yaradılıb. Suraxanı rayonu da bu qayğıdan kənarda qalmayıb. Heydər Əliyev Fondu tərəfindən rayonda xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzi inşa edilərək ən müasir avadanlıqlarla təchiz olunub.

Tədbirdə çıxış edən Dövlət Sosial Müdafiə Fondu rayon şöbəsinin müdiri Şahalı Cəbiyev əlillərin dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunduğunu, onların sosial həyatının daha təminatlı olması üçün müxtəlif tədbirlər həyata keçirildiyini diqqətə çatdırıb.

Mərasimdə digər çıxış edənlər bildiriblər ki, ümummilli lider Heydər Əliyev əlillərə həmişə qayğı ilə yanaşıb, onların sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayıb. Hazırda Prezident İlham Əliyev tərəfindən də bu kateqoriyadan olan insanlara yüksək diqqət və qayğı göstərilir.

Sonda rayonun Səttar Bəhlulzadə adına mədəniyyət sarayının musiqi kollektivinin üzvləri rəngarəng proqramla çıxış ediblər.

## Qazax rayonu

Qazax rayonunda Beynəlxalq Əlillər Günü münasibətilə tədbir keçirilmişdir. Rayon icra hakmiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirə Böyük Vətən müharibəsi əlilləri, Qarabağ müharibəsi qaziləri, rayonda fəaliyyət göstərən əlil cəmiyyətlərinin üzvləri dəvət olunmuşdur.

Tədbiri rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov açaraq əlilləri salamlamış, onlara uzun ömür və cansağlığı arzulamışdır. Rayon rəhbəri bildirmişdir ki, Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə dünya miqyasında keçirilən Beynəlxalq Əlillər Günü ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 1994-cü ildən etibarən Azərbaycanda da geniş şəkildə qeyd olunur.

Azərbaycan BMT Baş Məclisi tərəfindən qəbul edilmiş “Əlillərin hüquqları haqqında” Konvensiyaya qoşulub. Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlərin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. İnsan amilini xüsusi diqqətdə saxlayan görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyi dövründə əlillərin sosial müdafiəsi, onların cəmiyyətə inteqrasiyası ildən-ilə gücləndirilib. Ölkədə əlillərin



sosial müdafiəsi ilə bağlı dövlət proqramı hazırlanıb. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapıb.

Ümummilli lider Heydər Əliyevin “Biz əlillər üçün, onların yaşaması üçün, əmək fəaliyyətinə cəlb olunması, öz daxili imkanlarından, istedadlarından istifadə etmələri üçün daha da geniş şərait yaradacağıq” fikri dövlətimizin sosial siyasətinin mühüm prioritetlərindən biri kimi müəyyən olunub. Prezident İlham Əliyevin uğurlu sosial siyasəti, digər sahələrdə olduğu kimi, bu tədbirlərin də getdikcə daha geniş vüsətlə davam etdirilməsinə imkan yaradıb.

Əlillərin, şəhid ailələrinin və müharibə veteranlarının sosial müdafiəsi ölkə Prezidentinin daim diqqət mərkəzindədir. Dövlət başçısının əhalinin sosial problemlərinin həllinə xüsusi qayğısı əlillərin həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpasına şərait yaradıb. Əlilliyi olan şəxslərin maddi təminatının gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Bu sahədə qanunvericilik təkmilləşdirilib. Dövlət əlil vətəndaşların çoxsaylı sosial proqramlara, o cümlədən sağlamlıq, reabilitasiya, pulsuz istirahət, texniki bərpa və nəqliyyat vasitələri ilə təminat proqramlarına cəlb olunmasını həyata keçirir. Paytaxtda və bölgələrdə yeni reabilitasiya mərkəzləri istifadəyə verilib. Əlillərin ölkədə, eləcə də xaricdə müalicəsi də xüsusi diqqətdə saxlanılır.

Dövlət başçısının tapşırığına əsasən, əlillərin evlə təmin olunması istiqamətində də böyük işlər görülüb və görülməkdədir. Bu insanlar üçün hər il orta hesabla 700-dən çox mənzil tikilir. Əlillərin minik avtomobili ilə təminatı proqramı da həyata keçirilir. Minik avtomobili ilə təmin olunan əlillərin sayı da ildən-ilə artır.

Əlillərə ödənilən pensiya və müavinətlərin məbləği də hər il artırılır. Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının məlumatına əsasən, Azərbaycan hazırda əmək pensiyasının baza hissəsinin məbləğinə görə MDB ölkələri arasında ilk yerlərdən birini tutur.

Rayonda 440 nəfər tənha yaşayan əlil və ahıl vətəndaşlara evlərdə xidmət göstərilir. Əlillik statusu olan vətəndaşlardan 43 nəfəri sanatoriyaya, 8 nəfəri “Sağlamlıq imkanları məhdud gənclərin peşə reabilitasiya mərkəzi”nə, 2 nəfəri “Sağlamlıq imkanı məhdud şəxslərin evi”nə, 1 nəfəri isə qocalar evinə göndərilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ əlilləri və şəhid ailələri üçün rayonumuzda 2016-cı il ərzində 8 mənzil tikilib istifadəyə verilmiş, bu il daha 8 mənzilin tikilməsinə başlanılmışdır. Məlumat üçün bildiririk ki, nazirlik tərəfindən əhalinin sosial müdafiəsinin möhkəmləndirilməsi üçün yeni pilot layihələri üzərində işlənilir.

Rayon rəhbərliyi tərəfindən Dəmirçilər, Ürkməzli və Quşçu Ayrım kəndlərində Qarabağ müharibəsi əlillərinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində əsaslı işlər görülmüşdür.

2014-2016-cı illərdə I, II və III qrup Qarabağ əlillərindən 12 nəfərinə avtomobil verilmişdir. Növbədə olan 26 nəfərə isə qarşıdakı illər ərzində avtomobilin verilməsi nəzərdə tutulub.

Rəcəb Babaşov demişdir ki, əlillər ölkə və rayon rəhbərliyi tərəfindən daim diqqət mərkəzindədir və onlara qayğı daim olacaqdır.

Rayon icra hakimiyyəti başçısının müavini Gulaya Həsənova, Böyük Vətən müharibəsi əlili Xanqulu Süleymanov, Qarabağ Müharibəsi Veteranları, Əlilləri və Şəhid Ailələri İctimai Birliyinin rayon şöbəsinin sədri Xasay Balayev, Silahlı Qüvvələrin “Ehtiyatda olan zabitlər” Konfederasiyası rayon şöbəsinin sədri, I qrup Qarabağ müharibəsi əlili Baxış Hüseynov, ehtiyatda olan baş leytenant, Qarabağ qazisi Kamil Müsəvi, Azərbaycan Yazıçılar Birliyi Qazax filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal və başqaları çıxış edərək ölkə Prezidenti İlham Əliyevin əlillərə göstərdiyi diqqət və qayğıdan danışmış, bu istiqamətdə Qazax rayonunda görülmüş işlər və həyata keçirilmiş tədbirlər barədə məlumat vermişlər.

Bayram tədbiri əyləncəli musiqi proqramları ilə nahar süfrəsi ətrafında davam etdirilmişdir. Əlil qadınlara bayramla əlaqədar gül dəstələri təqdim olunmuşdur.

*İlqar RÜSTƏMOV,*
*Vaqif BAYRAMOV,*
*Hamlet QASIMOV,*
*“Xalq qəzeti”*